TEYMUR ƏHMƏDOV

# ERMƏNİ XƏYANƏTİ VƏ YA ANDRANİK OZANYANIN QANLI ƏMƏLLƏRİ

(1918-1920-ci illər)

BAKI
ŞİRVANNƏŞR
2001

ŞİRVANNƏŞR, 67 (353), 2001
N A Ş İ R
Qəşəm İSABƏYLİ

Redaktoru və "Ön söz"ün müəllifi
*Ataxan PAŞAYEV*

Nəşriyyat redaktoru
*Anar İSABƏYLİ*

**Teymur ƏHMƏDOV**

**Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər). II nəşri. Bakı, Şirvannəşr, 2001.**
**32 s.**

Professor Teymur Əhmədovun kitabında zəngin arxiv sənədləri, dövri mətbuat və s. ilkin mənbələr əsasında Andranik Ozanyanın simasında erməni şovinistlərinin Azərbaycan xalqına qarşı soyqırım siyasəti ifşa edilir, erməni xəyanətinin mahiyyəti açılır.

83.3. Az(2)
T ―――――――
054

*Ünvan: Bakı–370021, Badamdar şos. 77.*
*Tel.: 92-92-27, 92-93-72.*

## ÖN SÖZ

*Türkiyədə doğulmuş, o torpağın çörəyi və suyu ilə böyüyüb boya-başa çatmış, sonra isə Türkiyəyə, türk xalqına və bütün türk dünyasına qənim kəsilmiş, onlara qarşı tarixdə eşidilməmiş vəhşiliklər törətmiş Andranik Ozanyan kimdir? Andranikdən söz düşəndə hər bir türk, hər bir azərbaycanlı onu türk soyundan olan xalqların cəlladı kimi xatırlayırlar. Doğrudan da Andranik kimdir? Biz onun haqqında, onun xalqımıza qarşı törətdiyi vəhşiliklər haqqında xalqımızın cəlladıdır sözündən başqa bir şey bilirikmi? Təəssüflər olsun ki, yox. Hər bir azərbaycanlıdan soruşsan ki, Andranik kimdir? Tayqulaq və xalqımızın qatı düşməni sözündən başqa bir cavab ala bilməyəcəksən. Biz bu günə qədər də xalqımızın Andranik, Dro, Nyda, Hamazasp, Zore Balayan və bu kimi qatı düşmənlərinin kim olduqları haqqında xalqımıza ətraflı məlumat verə bilməmişik. Ancaq belə məlumatlar vacibdir, özü də çox vacibdir. Düşməni o vaxt lazımınca ifşa etmək olar ki,onun haqqında ətraflı məlumatın olsun.*

*Türkiyə təbəəsi olan Andranik ilk gənclik illərindən başlayaraq Türkiyədə ermənilərdən ibarət silahlı quldur dəstələri təşkil edərək uzun illər türk xalqına, xüsusilə dinc əhaliyə – qocalara, qadınlara və uşaqlara qarşı amansız terror aktları həyata keçirmiş və minlərlə adamın günahsız qanına bais olmuşdur. Buna görə də Türkiyə hökuməti tərəfindən təqib olunan Andranik 1905-ci ildə Tiflisə gələrək buradan Avropaya gedir. Avropada o, çox ölkələri dolaşaraq, nəhayət 1907-ci ildə Bolqarıstanda məskunlaşır. 1912-1913-cü illərdəki birinci Balkan müharibəsi zamanı könüllü erməni dəstələri təşkil edən Andranik türk ordularına qarşı vuruşmuş və Bolqarıstandakı türk mənşəli əhaliyə qanlı divan tutmuşdur.*

*Birinci dünya müharibəsi başlanarkən Andranik 1914-cü ildə yenidən Tiflisə gəlir və burada ermənilərdən ibarət könüllü drujina yaradır və rus ordusunun Qafqazdakı Şərq cəbhəsində Türkiyəyə qarşı döyüşlərdə fəal iştirak edir. 1915-1916-cı illər-*

*də rus ordusunun Şərqi Anadoluda həyata keçirdiyi hərbi əməliyyatlar zamanı rus ordusu tərəfindən işğal olunmuş Bitlis, Muş, Ərzurum və sair ərazilərdə Andranikin drujinası şəhər və kəndləri dağıdır, mülki türk əhalisinə qarşı kütləvi şəkildə qanlı qırğınlar törədirdi.*

*Qafqaz-Anadolu cəbhəsində "fəaliyyəti zamanı" doğulub boya-başa çatdığı ölkəyə qarşı xəyanət edərək ruslara göstərdiyi "xidmətlərinə görə" Andranikə rus ordusunun general-mayoru hərbi rütbəsi verilir.*

*Ərzurumda türklər tərəfindən əsir götürülmüş rus ordusunun artilleriya zabiti Tverdoxlebov Andranikin bir hərbi xadim kimi tam səriştəsizliyindən, onun drujinasının türklərə qarşı törətdiyi vəhşiliklərdən bəhs edərək yazırdı: "Ərzurumda bizim arxamızca gələn ermənilər, bu qana susamış və "azadlıq uğrunda mübariz" qorxaqlar müdafiəsiz qocaları, qadınları və uşaqları amansızlıqla doğrayırdılar."*

*Rusiyada 1917-ci il inqilabı və bolşevik çevrilişindən sonra Andranik İrəvana gəlir. Lakin 1918-ci il may ayının axırlarında Güney Qafqazda üç müstəqil respublika yarandıqdan sonra təbiətən kobud və özü haqqında böyük fikirlərdə olan Andranik yeni yaranmış Ermənistan daşnak hökuməti ilə dil tapa bilmir. 1918-ci il iyunun əvvəllərində o, özünün 8 min əsgəri, 4 topu, 6 pulemyotu və başqa hərbi silah və sursatları ilə İrəvandan çıxaraq Naxçıvandan İrana keçərək buradakı ingilis qoşunları ilə birləşmək istəmiş, lakin onun keçəcəyi əraziləri türklər işğal etdiyi üçün niyyəti baş tutmayaraq yenidən Naxçıvana qayıtmışdı. Burada Andranikin quldur dəstələri böyük vəhşiliklər törədir, Yaycı və digər kəndləri vəhşicəsinə dağıdır, çoxlu dinc əhalini məhv edir və işgəncələr verir.*

*Onun məqsədi Naxçıvanda qüvvələrini möhkəmlətdikdən sonra, Zəngəzur və Qarabağa keçmək, oradan isə hərəkət edərək Bakı quberniyası ərazisindəki bölgələrdə xalqımıza divan tutan üzdə bolşevik, əslində isə qatı daşnak Stepan Şaumyanın dəstələri ilə birləşmək idi. Bunu Andraniklə S.Şaumyan arasındakı gedən yazışmalar da bir daha sübut edir.*

*1918-ci ilin yayında Kazım Qarabəkir paşa başda olmaqla türk ordularının Naxçıvana gəlməsindən qorxuya düşən Andranik həmin ərazini tərk edərək Zəngəzura keçərək orada özünə məskən salır. Onun məqsədi Zəngəzur və Qarabağ torpaqlarını*

*ələ keçirərək həmin ərazilərin Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmasına imkan verməmək idi.*

*Nə qədər ki, türk orduları Azərbaycanda idi, Andranikin dəstələri Zəngəzur dağlarına çəkilərək əl-qol aça bilmirdilər. 1918-ci il oktyabrın 30-da İngiltərə ilə Türkiyə arasında bağlanmış Mudros sazişinə görə türk ordularının Güney Qafqazdan çıxarılması nəticəsində Andranikin quldur dəstələri noyabrın axırlarından başlayaraq yenidən Zəngəzur və Qarabağın azərbaycanlı əhalisindən ibarət kəndlərin üzərinə basqınlar edir, onları topa tutur, soyub talayaraq, qətl və qarət edirlər. Yalnız Azərbaycan Cümhuriyyət hökumətinin təkidli tələbləri nəticəsində 1919-cu ilin martında ingilis komandanlığının qəti tələbi ilə Andranikin quldur dəstələri bu ərazilərdən çıxarılaraq Ermənistana yola salınmışdır. Burada o, özünün silahlı quldur dəstələrini buraxmış, silahları isə ümumerməni katalikosuna təhvil verərək ölkəni tərk etmişdir.*

*Maraqlıdır ki, türk xalqlarının qəddar düşməni olan bu qatı şovinist millətçi bütün həyatı boyu öldürməkdən, dağıtmaqdan, yandırmaqdan başqa bir iş görməmişdir.*

*Bu günə qədər bu qatı cinayətkar haqqında biz xalqımıza əməlli-başlı bir məlumat verə bilməmişik. Deməmişik ki, həqiqi mənada Andranik kimdir? Tarixi faktlar göstərir ki, o, ermənilərin dediyi kimi görkəmli sərkərdə, milli qəhrəman olmamış, əksinə dinc əhaliyə – qocalara, qadınlara və uşaqlara divan tutan, əlsiz-ayaqsızların qanını içən "cəllad"dır. Bu baxımdan professor Teymur Əhmədovun "Erməni xəyanəti və yaxud Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)" əsəri göstərilən boşluqları dolduran ilk iri həcmli tədqiqat əsəridir. İlk dəfə olaraq bu əsərdə Andranikin 1918-1920-ci illərdə xalqımıza qarşı törətdiyi cinayət əməlləri arxiv sənədləri, dövri mətbuat və digər ilk mənbələr əsasında ardıcıllıqla ümumiləşdirilərək geniş şəkildə əks olunmuşdur. Bu əsəri oxuyan hər bir azərbaycanlı orada gətirilən faktlarla tanış olarkən Andranikin kim olduğunu biləcək, onun xalqımızın başına açdığı müsibətlərlə daha yaxından tanış olacaq. Teymur müəllimin bu əsərini oxuyan hər bir azərbaycanlı bu "qəhrəmanın" təkcə adını deyil, həm də onun ermənilik xisləti, xalqımızın başına açdığı müsibətlər haqqında ətraflı xəbər tutacaq. Biz oxucuların bu əsəri diqqətlə oxuyaraq yaxşı-yaxşı düşünmələrini arzu edirik.*

# ERMƏNİ XƏYANƏTİ VƏ YA ANDRANİK OZANYANIN QANLI ƏMƏLLƏRİ (1918-1920-ci illər)

1918-ci ildə tarixən ilk müstəqil Ermənistan Respublikası yaradan daşnaklar Zaqafqaziyada ictimai-siyasi qarışıqlıqdan istifadə edib Antantanın köməyi ilə "Böyük Ermənistan" xülyasını həyata keçirməyə çalışırdılar. Onlar Qarabağ, Naxçıvan, Axalkalaki, Borçalı və digər bölgələri zor gücünə ələ keçirmək üçün hərbi əməliyyata bel bağlayırdılar. 1918-1920-ci illər Zaqafqaziyada azərbaycanlıların soyqırımını təşkil edən Ermənistan daşnak hökuməti Azərbaycana qarşı təcavüzkar mövqe tutaraq onun qədim torpaqlarını ələ keçirməyə can atırdı. Bu dövrdə Qərbi Azərbaycanda azərbaycanlılar tükürpədici qanlı faciələrə – talanlara, qırğınlara, qaçqınlığa məruz qaldılar.

Andranik, Hamazasp, Hayk, Dro və Njda kimi başıpozuq zabit və generallar öz quldur dəstələri ilə ağlasığmaz vəhşiliklər törədir, kəndləri talayır, yandırır, xarabazara çevirirdilər.

"Şeypur" jurnalı 14 noyabr 1918-ci il tarixli nömrəsində yazırdı: "Doğrudan da, həya bir yaxşı şeydir. İnsan ki, həyasız oldu, heç nə; həyasız adamdan hər nə desən baş verər...

Bu həyasızlardan biri Ermənistan hökumətinin baş komandanı Andranik kirvədir ki, yenə də Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır. Ermənistan hökuməti də gözlərini yumub əli ilə işarə eləyir. Ermənistan hökumətinin nə tövr siyasət yeritdiyini və nə fikirdə olduğunu demək artıqdır.

Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı da gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun".

Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Şuşa, Qaryagin, Cavanşir və Zəngəzur kimi ucqar qəzalarda baş verən hadisələri tam izləyə bilmirdi. Həmin qəzalarda yaşayan erməni

əhalisi Azərbaycan hökumətini tanımaq istəmir, müsəlmanlara qarşı düşmənçilik edirdilər.

Andranikin başçılığı ilə erməni qoşun hissələrinin ucqar qəzalarda peyda olması vəziyyəti daha da gərginləşdirmişdi.

"Azərbaycan" qəzeti 17 may 1919-cu il tarixli nömrəsində yazırdı ki, ilin əvvəlindən "Ararat Respublikasının hərbi hissələri Göyçə rayonunun, Yeni Bayazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsəd Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir.

Hazırda 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhali isə qırılmışdır. Göyçə müsəlmanlarını qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirən erməni qoşunlarının atəşləri ilə bədbəxt müsəlman əhalisi rəhmsizcəsinə məhv olur. Erməni hökumətinin... öz təbəəliyində olan müsəlman vətəndaşlarına qarşı belə vəhşiliklərini gördükdə adam dəhşətə gəlir. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir... qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, əhalinin malı, dövləti acgöz erməni qoşunları tərəfindən ələ keçirilib, öz aralarında bölüşdürülür..."

Erməni quldur dəstələri tərəfindən təqib olunanlar Gəncə qəzasının qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb məhv olurlar. "...Artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hazırda Yeni Bayazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Baş Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Çayəhmədli, İnəkdağ, Qara İman, Kəsəmən, Baş Kənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qərib Qaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu mal-dövlət hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir".

Azərbaycanın qədim tarixi torpağında ermənilərin törətdikləri ağlasığmaz vəhşiliklər dövri mətbuatda, arxiv sənədlərində

əksini tapmışdır. Araşdırmalardan göründüyü kimi, 1918-1919-cu illərdə kütləvi qırğınların təşkilatçılarından biri də öz qəddarlığı ilə seçilən Ermənistanın ən böyük milli qəhrəmanı zirvəsinə yüksəldilmiş Andranik Ozanyan olmuşdur.

Türkiyədə hərbi andına xəyanət etdiyinə görə bir qulağı kəsilməklə cəzalandırılmış Andranik Paşa ömrü boyu "Tayqulaq general" kimi tanınmışdır. Andranik Ozanyan kimdir?

Andranik Ozanyan Torosi 1865-ci il fevralın 25-də Türkiyədə Şapin-Qarahisar qəsəbəsində doğulmuşdur. Burada Muşeğyan məktəbində ilk təhsil almışdır. 1894-1896-cı illərdə erməni qiyamçı hərəkatına qoşulmuş, Sasun dağlarında başçılıq etdiyi ekstremist dəstəsi ilə təxribatla məşğul olmuşdur. 1912-1913-cü illərdə Birinci Balkan müharibəsində bolqar ordusu tərkibində türklərə qarşı vuruşmuşdur. Ona yüksək hərbi rütbə verilmişdir. Birinci Dünya müharibəsi rus hərbi birləşmələri tərkibində 1200 nəfərdən ibarət 1-ci erməni könüllülər dəstəsi ilə Salmas–Başqala–Van istiqamətində türklərə qarşı döyüşmüşdür. Rus qoşunları komandanı, general Çernozubov yazır: "...Hissə Andranikin başçılığı altında 1915-ci il aprelin 15-28-də Muxancığın (Dilmanın) məlum döyüşlərində iştirak etmiş, bunun sayəsində də Qafqaz düşmənin yürüşündən qurtarmışdır. Mən Andranikin şəxsində həmişə alovlu vətənpərvəri, Ermənistanın azadlığı uğrunda vuruşan döyüşçünü və vətənini dərindən sevən bir şəxsi (?) gördüm" (Bax: "Erməni xalqının tarixi", VI cild, səh. 549). Rus generalı Çernozubovun dinc müsəlmanlara qəddarcasına divan tutan, öz cəza dəstələri ilə keçdiyi yerləri xarabazara döndərən, qocaları, qadın və uşaqları rəhm etmədən qətlə yetirən bir cəlladı vətənpərvər-döyüşçü adlandırması onun rus şovinizmindən, müsəlmanlara qarşı düşmən münasibətindən irəli gəlirdi. Ümumiyyətlə, Andraniklə əməkdaşlıq edən, onunla həmfikir olan hər kim olursa-olsun onun vəhşiliyindən söz açmaqdan çəkinmiş, onu milli qəhrəman kimi göylərə qaldırmağa çalışmışlar.

Hətta general Andranikin qəddarlığının, azğınlığının və qeyri-insani hərəkətlərinin şahidi olan və ya onun quldur dəstəsində fəaliyyət göstərən müasirləri də qanlı cinayətlərdən öz ya-

xalarını kənara çəkmək, əsil həqiqəti gizlətmək üçün faşist xislətli generalı tərifləmişlər.

Təbii ki, Andranikin dəstəsində vaxtilə sıravi quldur-döyüşçü olan Sovet İttifaqı marşalı İ.X.Bağramyan, sovet hakimiyyəti dövründə yüksək dövlət və hökumət vəzifələrinə soxulan A.İ.Mikoyan kimi qatı millətçilər əldə silah şəxsən törətdikləri qanlı cinayətlərini ört-basdır etmək üçün Andraniki "aydan arı, sudan duru" çıxarmalı idilər. Onların hər ikisi Andranikin quldur dəstəsində şovinist tərbiyə və qəddarlıq məktəbi keçmişdilər (Bax: İ.X.Bağramyan. Mənim xatirələrim, Yerevan, 1980, səh. 20-21). Onlar öz memuarlarında Andranikin qanlı cinayətlərinə göz yumub abır-həya etmədən onu vətənpərvər döyüşçü kimi təbliğ etmiş, Ermənistanın Ucan kəndində onun xatirə-abidəsinin ucaldılmasına rəvac vermişdilər. Ömürləri boyu Azərbaycan xalqından hörmət-izzət görən bu adamlar azərbaycanlılara qarşı gizlin, ya açıq düşmənçilikdən əl çəkməmişlər. Akademik Satur Ağayan kimi millətçi erməni tarixçiləri öz əsərlərində general Andraniki "xalqın azadlığı uğrunda fədakar mübariz" təki qələmə verməyə çalışmış, məktəb dərsliklərində təbliğ etmişlər. Silva Kaputikyan, Sero Xanzadyan və bir sıra yazıçılar ona mədhnamə yazmışlar. Sero Xanzadyan tarixi həqiqəti saxtalaşdıraraq cəllad Andranikin qanlı əməllərini ört-basdır edib irihəcmli "Andranik" romanında (Yerevan, "Sovetakan qroğ", 1984) Qərbi Ermənistanda ermənilərin türklər tərəfindən fiziki məhvə məruz qalmasından, general Andranikin ermənilərin azadlığı uğrunda inadlı cəhdindən, rus xalqına inamından bəhs etmişdir.

* * *

Türkiyə Avropa ölkələri hərbi birləşmələrinə qarşı bir neçə cəbhədə ölüm-dirim mübarizəsi apardığı bir dövrdə ölkənin xəyanətkar erməni təbəələri cəbhə bölgələrində təxribat edir, qiyam qaldırır, türk ordusunun müqavimətini zəiflətməyə çalışırdılar. 1914-cü ildə Sarıqamış məğlubiyyətindən sonra Türkiyədə rus qoşunları tərkibində olan Qafqaz və Türkiyə erməni könüllü dəstələri müsəlman əhalisinə qarşı amansız olmuşdu. Bu quldur

dəstələrindən birinə türk qanına susamış Andranik komandanlıq etmişdir. Onlar türk və kürdlərlə son dərəcə amansız rəftar etmiş, var-yoxlarını talamış, qəddarlıqla öldürmüşlər. "Bu ermənilər kürdlər tərəfindən öldürülmüş soydaşlarının intiqamını almaq bəhanəsi ilə 1915-1918-ci illər arasında Türkiyənin şərq vilayətlərində 600.000-dən çox kürdü qətlə yetirmişlər" (Bax: Kamuran Gur. Erməni dosyesi, Ankara, 1985, səh. 260). 1917-ci ildə Rusiya Ali Baş komandanlığı tərəfindən Andranik Ozanyana general-mayor rütbəsi verilir. Qəribədir ki, daşnak partiyasının təcavüzkar, avantürist və qatı millətçi qanadına mənsub olan general Andranik daşnakların Türkiyə və Zaqafqaziya regionlarında apardıqları milli siyasətindən incikli idi, onlarla əlaqələrini kəsməyi qət etmişdi. Bu barədə 1917-ci ilin oktyabrında general Andranikin mətbuatda bəyanatı da dərc olunmuşdur. Orada deyilir: "Səbəbini açıqlamadan daşnak yoldaşlarıma bildirirəm ki, Daşnaksutyunun sıralarından gedirəm ("Armyanski vestnik" jurnalı, 1917-ci il, N-41-42, səh. 23). 1918-ci il iyunun 4-də Ərzurum döyüşlərində türk qoşunları tərəfindən güclü təzyiqə məruz qalan, sıxışdırılan erməni könüllü dəstələri Sarıqamış–Qars–Aleksandropol istiqamətində geri çəkilərkən erməni daşnak hökuməti ilə Türkiyə arasında Batumda sülh müqaviləsi bağlanır. Bu müqaviləyə görə hərbi münaqişə dayandırılır, Qərbi Ermənistan Türkiyə ərazisi kimi təsdiq olunurdu. Bu hadisə davakar Andranikin qəzəbi ilə qarşılanır. O, türklərə qarşı döyüş əməliyyatını davam etdirmək məqsədi ilə Urmiyə ətrafında düşərgə salmış general Denstervilin ingilis ekspedisiya dəstələri ilə birləşmək üçün İrana keçir. SSRİ xalq xarici işlər komissarı K.V.Çiçerinin öz məruzəsində dediyi kimi, türk qoşunları Urmiyə və Təbrizi general Denstervildən əvvəl tutduğundan Andranik geri çəkilməyə məcbur olur (Bax: "Bakinskiy raboçi" qəzeti, 14 may 1924-cü il).

O, 1918-ci ilin iyun ayının ortalarında Culfaya, oradan Naxçıvana doğru çəkilir. Türk qoşunlarının Naxçıvana gələcəyindən ehtiyat edib Oxçay vadisi ilə Abrakunisdən Qafana üz tutur. Yol boyu "Andranikin quldur dəstələri çoxlu miqdarda türk kəndlərini dağıtmışlar. Təkcə Yaycı kəndində 2500 adam öldürülmüş və

Araz çayında batırılmışdır ("Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsinin xəbərləri" N-6-7, iyun-iyul 1919-cu il, Tiflis).

Azərbaycan hökumətinə Ordubad və Yeni Bayazid qəzalarından göndərilən saysız-hesabsız teleqram və məktublarda bildirilirdi ki, Andranikin başçılıq etdiyi hərbi hissələr kəndləri talan edir, dinc əhalini öldürür, minbir vəhşilik törədirlər (Bax: Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), 894, siyahı 4/85, vər. 120-134).

Andranik öz quldur dəstəsi ilə Zəngəzur və Qarabağda bütün müsəlman kəndlərini dağıdıb yerlə yeksan etməklə, əhalinin mal-mülklərini talamaq və onları işgəncələrə düçar etməklə soyqırım siyasəti yeridirdi. Qanlı cinayətin həyata keçirilməsində Andranik bu ərazidə yaşayan yerli erməni kəndlilərindən də məharətlə istifadə edirdi. O, əli silah tutan erməni gənclərini hədə-qorxu gücünə səfərbərliyə alır, qanlı cinayətə sövq edir, tabe olmayanları cəzalandırırdı.

Rəsmi məlumatlar, teleqramlar, şahidlərin ifadələri, mətbuat xəbərləri və digər arxiv sənədləri Andranikin öz quldur dəstələri ilə törətdiyi ağlasığmaz cinayətlərin ümumi mənzərəsini təsəvvür etməyə imkan verir.

1918-ci ilin sentyabrında Andranik Sisyanda bütün müsəlman kəndlərini dağıtmış, 50 min adam doğma ocağını tərk etməli olmuşdur. Canbuh və Xanar dərələrinin qənşərində olan Qaraqışlaq kəndinin yüzlərlə sakini qılıncdan keçirilmişdir. Vağudi kəndində qadın və uşaqlara işgəncələr verilmişdir. Məscidə sığınmış 400 kənd sakinini məsciddə od vuraraq yandırmışlar. Ağudi kəndində xristianlığı qəbul etməkdən imtina edən kişilərin hamısı vəhşicəsinə döyülmüş, qadınların döşləri kəsilmişdir. Bağırbəyli kəndində yeddi kişi və qadını bir damın içində diri-diri yandırmış, meyitləri eybəcər hala salınmışdır.

Zəngəzur qəza rəisi Gəncə general-qubernatoruna 23 fevral 1919-cu il tarixli teleqramında xəbər verirdi ki, Andranik silahlı dəstəsi ilə Həkərəyə hücum edib. Onun məqsədi Cəbrayıl və Şuşa qəzalarının dağlıq yerlərini, Asuran və Zəngəzuru, Xudafərin

körpüsünü tutmaqdır (Bax: (ARDA), f. 894, siy. 7, i. 8, v. 29, 31, 32).

Qəza rəisi 28 fevral 1919-cu il tarixli digər məlumatında isə Gəncə qubernatoruna bildirirdi ki, "Qaniçən və soyub talamaq hərisi general Həkərədən tutmuş Arazadək, Minkənddən tutmuş Bazarçaya və Naxçıvanadək olan ərazilərdə vəhşicəsinə hərəkətlərə əl atmaqdan çəkinmir" (Yenə orada, vər. 32).

Zəngəzur qəzasında Andranikin quldur dəstələri 115 kəndi talan etmiş, dağıtmış və od vurub yandırmışlar. Bu faciə zamanı "3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 485 uşaq şikəst olmuş, yaxud yaralanmışdır. Bütövlükdə qəzada 10068 adam öldürülmüş və şikəst olmuşdur. Andranik hücum etdiyi bütün ərazilərdən azərbaycanlıları çıxarmağa, burada Türkiyə dövlətinə qarşı qiyam etdiyinə görə qaçqın düşən erməniləri yerləşdirməyə çalışırdı. Məhz bu niyyətlə də öz himayədarlarının razılığı ilə Andranik öz quldur dəstəsi ilə Qarabağ qəzalarında da qəddarlıqla kütləvi qırğın aksiyaları keçirmiş, Azərbaycan kəndlərini dağıtmışdır.

Cavanşir, Şuşa, Cəbrayıl, Zəngəzur qəzalarında və Gəncə quberniyasında Andranikin özbaşınalığı, törətdiyi qətllər və cinayətlər ingilis-fransız missiyasını qətiyyən narahat etmirdi. Təkzibedilməz faktlar göstərir ki, Andranik qanlı əməllərində ingilis-fransız missiyasına güvənmişdir.

Çünki Azərbaycan kəndlərinə basqın edən, dinc əhaliyə vəhşicəsinə divan tutan Andranikin silahlı quldur dəstələrinin davam edən zorakılığına, cinayətkar hərəkətlərinə qarşı ingilis-fransız missiyası qəti tədbir görmədi, onların geniş miqyaslı döyüş əməliyyatlarına etinasızlıq göstərdi.

Üzeyir Hacıbəyov "Azərbaycan" qəzetinin 15 dekabr 1918-ci il tarixli sayında "Andranikin məsələsi" məqaləsində başıpozuq generalın heç bir söz, nəsihət və xəbərdarlıqlara, hətta ingilis hərbi komandanı, general-mayor Tomsonun təhdidlərinə belə məhəl qoymadan müsəlman kəndlərini dağıtmasını, əhalisini öldürməsini, özbaşınalığını şərh edir, onu quldur adlandırır, yazır ki, "bir quldurun yanına "deleqat" göndərmək, onu kağız vasitəsilə quldurluqdan mənqılmaq və ya həddini bildirmək üçün te-

leqram vasitəsilə təhdid etmək nə hökumətimizin şanına layiqdir, nə ingilis komandasının və bir də məşhur məsəldir ki, "Quran oxumaqla donuz darıdan çıxmaz", quldurların qabağına lazım olan qədər güc göndərmək istər ki, dəstəsini də, özünü də dəstgir edib məhkəmə qarşısına gətirsin və cəzai səzasına çatmaq üçün təhti-mühakiməyə verilsin". Üzeyir Hacıbəyov Qarabağda "zülmü sitəmə məruz qalan müsəlmanları tezliklə xilas etməyi", "vaqeənin getdikcə böyüyüb əngəl olmağına imkan verməmək üçün" Andranikin hərəkətini necə olursa-olsun dayandırmağı tələb edir. Xalqın tökülən qanlardan zara gəlib sülh istədiyi bir halda qan tökməyi rəzalət adlandırır, həmvətənlərinə üz tutub deyir: özümüzü qorumalı, hüdudumuzu elə möhkəmləndirməliyik ki, "hər dəli, qudurmuş soxulub bildiyini, istədiyini" edə bilməsin.

Üzeyir Hacıbəyov güman etdiyi kimi, Azərbaycan hökuməti Milli Məclisdə Andranik məsələsinə öz münasibətini "bəyan və elan" etməli idi.

Azərbaycan Məclisi-Məbusanının 1918-ci il dekabrın 20-də keçirilmiş fövqəladə iclasında parlaman üzvlərinin təkidi və tələbi ilə hökumət başçısı Fətəlixan Xoyski Andranikin başına dəstə toplayıb Qarabağ ərazisinə soxulması, özbaşınalığı və görülən tədbirlər barədə açıqlama verdi. O dedi: "...Andranik Türkiyə təbəəsidir.

Azərbaycan hökuməti hələ Gəncədə ikən Ermənistan hökumətinə müraciətlə soruşmuşdu ki, Andranik öz fəaliyyətində sizin tərəfinizdən iş görür, yaxud bu, onun şəxsi təşəbbüsüdür? Erməni hökuməti bizə cavab verdi ki, Andraniklə heç bir əlaqəsi-filanı yoxdur, özü də bir asidir. Özləri də ondan yaxalarını qurtarmaq istəyirlər, lakin bundan ötrü yetərli qüvvələri yoxdur.

Odur ki, Andranik iyulda Zəngəzurda böyük cinayətlər törətmişdi. Sonra o, Şuşa qəzasına soxulmuş və Əsgərana gedən yolu kəsmişdir. O, həmin qəza camaatının başına minbir müsibət gətirmişdir. O vaxt Azərbaycanın silahlı qüvvələri Bakıda idi. Məhz bu səbəbdən Qarabağa əvvəlcə erməni-Azərbaycan nümayəndə heyəti göndərilmişdi. Lakin bunun bir nəticəsi olmadı. Andranik öz əməllərini davam etdirirdi. Sentyabrda Bakıya

köçən hökumət dərhal bu məsələ ilə məşğul olur. Andranikə qarşı hərbi qüvvə göndərilir. Ordumuz Andraniki Şuşa və Zəngəzurdan sıxışdırıb çıxarır. Andranik qaçıb aradan çıxır və noyabradək gözə görünmür. Sentyabrın ortalarında Türkiyə ordusu Azərbaycan hüdudlarını tərk edəndən sonra Andranik artıq noyabrın 23-də yenidən bu ərazidə qəddarlıqlar göstərir. Həmin vaxt kəndləri dağıdıb yandırmaqla dinc əhaliyə nə qədər böyük ziyan vurduğu sizə bəllidir.

Hökumət buna etinasız qala bilməzdi. Biz öz tərəfimizdən mümkün olan bütün tədbirləri gördük. Oraya hərbi qüvvə, eyni zamanda nümayəndə heyəti də göndərdik. Nümayəndə heyəti hökumətin məktubunu aparmışdı. Məktubda ona sülh bağlamağı təklif etmişdik. Lakin buna baxmayaraq, ermənilər Gəncə, Qazax, Cavanşir və Cəbrayıl qəzalarında quldurluq edirdilər. Biz Andranikə bir daha məktub göndərdik. O, məktuba məhəl qoymayıb, əməllərini davam etdirirdi.

O, kəndləri dağıdıb-yandırırdı. Camaat qorxu içində yer-yurdlarını tərk edirdi. Yaşamaq üçün heç bir vəsaiti yox idi. Mən yenə də Andranikə müraciət etdim. Təklifimiz belə oldu ki, tərəflər öz yerlərində qalsın, hücumları dayandırsın və silahlanmaya ara versinlər.

Andranikin ordusu quldur dəstəsindən savayı başqa bir şey deyildi. Onun məqsədi bizə aydındır. O, Zəngəzur və Şuşa qəzalarını Azərbaycandan ayırmaq və həmin qəzaları Ermənistanla birləşdirmək məqsədi güdür. Biz, öz növbəmizdə, müvafiq tədbirlər görəcəyik" (Bax: Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti (1918-1920). Bakı, 1998, səh.97-101).

Müzakirələrdən sonra Parlament hökumətdən Qarabağ əhalisinin əmin-amanlığı üçün təcili siyasi və hərbi tədbirlər görülməsini tələb edir. Lakin yenicə ordu quruculuğuna başlayan Cümhuriyyət hökuməti qəti tədbirlər görə bilmədi. Qarabağ və Zəngəzurdan fəryad dolu teleqram və məktubların ardı-arası kəsilmədi.

Daşnak hökuməti Andranikin quldur dəstəsinin beynəlxalq çərçivəyə sığmayan qəddarlıqla dinc müsəlman əhalisinə qarşı cinayətkar hərəkətlərindən "narahatlıq keçirərək" taktiki gediş

etmək, rüsvayçılıqdan can qurtarmaq məqsədilə diplomatik nümayəndələrinin dili ilə rəsmən bildirmişdi ki, "general Andranik erməni qoşunlarının siyahısından çıxarılıb", ona görə də "erməni hökuməti Andranikin hərəkətlərinə qətiyyən məsuliyyət daşımır" (Bax: "Naş put" qəzeti, 17 fevral 1919-cu il).

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il martın 26-da daxili işlər nazirinə rəsmi tapşırığından göründüyü kimi Britaniya qoşunları Ali Baş Komandanlığının yazılı təminatı və köməyi ilə Andranikin Gorusda tərk-silah edilməsinə, "ingilis və general-qubernator nümayəndələrinin" müşayiətilə Naxçıvan və Şərur–Dərələyəz qəzaları hüdudlarından dayanmadan keçib gedəcəyinə ümid bəsləyirdi. Əlbəttə, ingilis missiyası bu təklif və tədbirə təminat vermədi.

Şərurdan tutmuş Cavanşir qəzası və Qarabağadək böyük ərazidə kəndləri dağıdan, qətllər, cinayətlər törədən, yüz minlərlə insanı doğma yurdundan didərgin salan Andranik özünə dayaq tapa bilmədi. Ona görə də 1919-cu ilin aprelində öz quldur dəstəsi ilə Eçmiədzinə gəlib erməni katolikosunun iştirakı ilə hərbi fəaliyyətini dayandırmasını elan edir, bir qrup silahdaşının müşayiətilə İran ərazisinə, oradan da Amerikaya gedir, 1927-ci il avqustun 3-də orada 62 yaşında ölür. Andranikin cəsədi 1928-ci ildə Fransaya gətirilib Parisdə Per-Laşez qəbiristanlığında basdırılır, üzərində abidə ucaldılır.

Moskvada nəşr olunmuş "SSRİ-də vətəndaş müharibəsi və hərbi müdaxilə" (1987) Ensiklopediyasında Andranik Ozanyan (1865-1927) türk despotizminə qarşı erməni milli azadlıq hərəkatının xadimi kimi təqdim edilmişdir. Onun fəaliyyəti barədəki məlumatda deyilir:

"XIX əsrin 90-cı illərində Qərbi Ermənistanda Andranik qiyamçı qrupun rəhbərlərindən biri olmuşdur. 1907-ci ildən Qafqaz cəbhəsində rus ordusu tərkibində erməni könüllülər dəstəsinə komandirlik etmişdir. 1917-ci ildə ona general-mayor rütbəsi verilmişdir. 1918-ci ildə türk ordusunun hücumlarından Ərzurumun müdafiəsini təşkil etmişdir. Sonra qaçqın erməniləri mühafizə edən millətçi hərbi hissələrin komandanı olmuşdur. 1918-ci ilin iyununda Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan

etmişdir. İyulun 14-də S.G.Şaumyana bildirmişdir ki, Sovet hökumətinin tapşırıqlarını yerinə yetirməyə hazırdır. Andranikin dəstəsi Zəngəzuru türk müdaxiləçilərinin hücumlarından qorumuşdur.

1919-cu ilin aprelində öz dəstəsilə Eçmiədzinə gəlmişdir. Daşnaklarla əməkdaşlıq etmək istəmədiyindən burada dəstəsini buraxmış, özü isə mühacirətə getmişdir".

Göründüyü kimi, bu məlumat tarixi faktları saxtalaşdıran ermənilərin istədiyi kimi təqdim olunmuşdur. Müsəlman qanına susamış cəllad Andraniki "aydan arı, sudan duru", vətənpərvər sərkərdə kimi təqdim etmişlər. 1918-ci ilin yayında Azərbaycan torpağına – Naxçıvana birminlik nizami ordusu ilə daxil olan Andranik Ozanyanın 1919-cu ilin aprelinədək Zəngəzurda, eləcə də ayrı-ayrı regionlarda ağlasığmaz vəhşiliklər törətməsindən, avantürist siyasətindən, şovinizmindən bir kəlmə də danışmamışlar. Doğrudur, Culfaya öz qoşunu ilə daxil olar-olmaz Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyanın çaparla göndərdiyi məktubu alan Andranik onunla əməkdaşlıq etməyə öz razılığını teleqramla bildirmiş, eyni zamanda Brest müqaviləsini və RSFSR hökumətinə tabeçiliyi tanıdığını xəbər vermişdir (Bax: "İzvestiya" qəzeti, 18 iyul 1918-ci il). Bu arada V.İ.Lenində inam yaradan S.Şaumyan onun tövsiyəsi ilə "Xalq qəhrəmanı Andranik Ozanyanın döyüşçülərini silah və paltarla təchiz etməyi" qərara almışdır. Stepan Şaumyan "Culfaya, Xalq rəhbəri Andranikə" göndərdiyi 1918-ci il tarixli teleqramında yazırdı:

"Sizin teleqramı aldım. Bütün mətni Moskvaya –Mərkəzi hökumətə bildirdim. Mən şəxsən Sizi, həqiqi milli qəhrəmanı təbrik edirəm.

Əgər cənab Kaçaznuni və başqaları Sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinlikdə yaşamazdı. Sizin bayrağınız altında vuruşan bütün qəhrəman əsgərlərə və bütün zəhmətkeş sakinlərə salam söyləyin. Həmin adamlara ki, onlar istər türk istibdadına qarşı, istərsə də milli azadlıq uğrunda mübarizədə əzmkarlıq göstərmişlər. Bütün çətinliklərə baxmayaraq Sizi dəvət edirəm inqilabın bayrağını aşağı endirməyəsiniz. Bakı proletariatı Rusiya hökumətinin köməyi ilə türk bəy-xan banda-

larına qarşı Kürdəmir və Ağsu istiqamətində qəhrəmanlıq mübarizəsi aparır. Əgər türk bəyliyinə və xanlığına, gürcü hakimiyyətinə, erməni burjuaziyasına qalib gəlsək, o zaman bütün Zaqafqaziyanın birliyinə nail olarıq, bununla Zaqafqaziya erməni kəndli və fəhlələrinin qurultayı sovet hakimiyyətini təsdiqləyər və yenidən Rusiya ilə birləşərlər. Mən çox şad olardım ki, bu imkanları reallaşdırmaq üçün Siz bizə yardımçı olasınız.

Mənimlə əlaqə yaratmaq üçün yollar aramağı rica edirəm". ("Bakinskiy raboçi" qəzeti, 20 iyul 1918-ci il).

Lakin Şaumyan öz niyyətinə çatmır. Çünki türk qoşunlarının Naxçıvana gələcəyindən xəbər tutan Andranik birminlik qoşunu ilə orada duruş gətirməyib uzaqlaşır, Zəngəzura tələsir.

* * *

1918-ci ilin iyulunda Andranik öz dəstəsilə Gəncə quberniyasının sərhəddini keçib Zəngəzura soxulmuşdur. Bir çox kəndlər dağıdılıb talan edilmiş, sakinlər qırılmış, yaxud doğma yerlərindən qovulmuşlar.

Bundan sonra Andranikin dəstəsi Şuşa qəzasını tutaraq, Əsgəran yolunu bağlamışdır.

Tezliklə Andranikin dəstəsi Araz vadisində görünmüşdür. Dəstə ingilislərlə birləşmək üçün Culfaya yollanmışdır.

Andranikə yol vermək istəməyən Yaycı kəndi dağıdılmışdır ("Borba qəzeti", 17 avqust 1918-ci il).

1918-ci ilin sentyabrında göndərilən Qafqaz İslam ordusu dəstələri Andranikin dəstələrini Şuşa və Zəngəzurdan sıxışdırıb çıxartmışlar. Lakin 1918-ci il noyabrın ikinci yarısında, İngiltərə ilə Türkiyə arasında bağlanmış Mudros sazişinə əsasən türk qoşunları Zaqafqaziyadan gedəndən sonra Andranikin dəstələri yenidən baş qaldıraraq Azərbaycan kəndlərini dağıtmağa və əhalisini qırmağa başlamışdır (Gürcüstan MDA, f. 2, s. I, iş 9, v. 12).

Evsiz-eşiksiz qalan bir çox qoca, qadın və uşaqlar qəzanın yollarında sərgərdan qalmışdılar (ARDA arxivi f. 895, s. I, iş I, v. 38).

1918-ci ilin noyabrında Gəncə qəzası 9-cu sahəsinin azərbaycanlı əhalisi Andranik tərəfindən tərksilah edilmişdir. Andranik həmin əhalidən vergi almağa başlamışdır.

Gəncə qubernatorunun Bakıya, Müsavat hökumətinin daxili işlər nazirinə 8 və 13 dekabr tarixli teleqramlarında daşnak quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarında dinc sakinlərin talanması və öldürülməsi ilə müşayiət edilən basqın faktları haqqında məlumat verilir (Yenə orada, f. 894, s. 4, iş 65, v. 130). Təkcə Zəngəzur qəzasında 30-dan artıq azərbaycanlı kəndi məhv edilmişdir (Yenə orada, F. 894, s. 4, iş 65, v. 129).

Əlbəttə, bütün bu hadisələrdən Zaqafqaziyada olan ingilis komandanlığı xəbərsiz deyildi. Bu diyarda "sülh, əmin-amanlıq yaratmaq" iddiasında olan ingilis-fransız missiyası əslində Andranikin quldur dəstələrinə qəyyumluq edirdi.

Ölkəni müstəmləkəyə çevirmək, xalqları əsarət altına salıb talan etmək üçün bu onlara sərfəli idi. Odur ki, Andraniki şirnikdirib bu ərazilərdə saxlayır, ondan istifadə edirdilər. Andranik özü məktublarının birində etiraf edirdi ki, "İngilis missiyasının təkidinə əsasən burada qalmalı oldum" ("Vperyod" qəzeti, 26 fevral 1918-ci il). Andranik ingilis komandanlığının tövsiyə və məsləhətlərindən öz məqsədinə uyğun istifadə etməyə, taladığı, darmadağın etdiyi, dinc əhalisinə divan tutduğu Azərbaycan kəndlərinə Türkiyədən ermənilərin köçürülməsini həyata keçirməyə çalışırdı. Andranik 22 noyabr 1918-ci il tarixli məktubunda yazırdı: "Düşünürdüm ki, yalnız ingilislərlə ittifaqda Türkiyə ermənilərinin yerdə qalanını xilas etmək olar" ("Naşe vremya" qəzeti, 3 yanvar 1919-cu il).

Zaqafqaziya Seyminin üzvü Ə.B.Ağayev bu əlaqələr haqqında Seymin 7 mart 1918-ci il tarixli iclasında danışmışdır. Ağayev Andranikin Zaqafqaziyada ingilis missiyasına və ABŞ konsulluğuna "Respublika" qəzetinin 5 mart 1918-ci il tarixli nömrəsində dərc olunmuş teleqramını oxumuşdur. Teleqramda deyilir: "Xainlər və satqınlar əhatəsinə düşdüyüm üçün xahiş edirəm məni dəstə rəisi vəzifəsindən azad edəsiniz".

Beləliklə, teleqramdan göründüyü kimi, Andranik özü ingilis-Amerika işğalçılarının tabeliyində olduğunu etiraf edir.

İ.Şaxinin "Daşnaksutyun Qafqazda rus ağqvardiyaçıları və ingilis komandanlığı xidmətində" (Tiflis, 1931) tədqiqatında daşnakların hökumət üzvlərindən tutmuş "məşhuri cahan" Andranikədək ingilis–Amerika komandanlığı və rus əksinqilabçıları ilə sıx bağlı olduqlarını tutarlı dəlillərlə sübut etmişdir.

Heç təsadüfi deyildi ki, Andranikin dəstəsində xeyli muzdlu Kuban kazakları və ağqvardiyaçı zabitlər də xidmət edirdilər (Bax: "Qolos Sredney Azii", 13 dekabr 1918-ci il, N 165).

Andranik general Denikin və general Biçeraxovla əlaqə saxlayır, məktublaşırdı.

Bu bir həqiqətdir ki, general Denikinlə daşnak hökuməti arasında hərbi-siyasi ittifaq mövcud olmuşdur. Şaxin öz araşdırmasında gizli rəsmi sənəd əsasında Andranikin də general Denikinlə məktublaşmasını sübut edir.

Andranikin general Biçeraxovla sıx əlaqəsi də muzdlu ordu başçılarının bir mənbədən sədəqə aldıqlarını və idarə olunduqlarını sübut edir. "Azərbaycan" qəzetinin 7 fevral 1919-cu il tarixli nömrəsində Andranikin general Biçeraxova teleqramı dərc olunmuşdur. Orada Andranik öz həmkarının ona göndərdiyi bir milyon manata görə yazır: "... Sizə öz dərin və səmimi təşəkkürümü bildirirəm ki, Siz mənim dəstəmi və yazıq qaçqınları unutmamışsınız". Andranik erməni xislətinə uyğun "möhtac və yazıq" erməni qaçqınlarının halına göz yaşı töksə də əslində Zəngəzurda bütün müsəlman kəndlərini talayır, var-yoxdan çıxarırdı.

Andranikin törətdiyi vəhşilik və dağıntılardan azərbaycanlılarla qonşuluqda yaşayan ermənilər də zərər çəkirdi. Bu qəddar generalın erməni əhalisinin köməyinə bəslədiyi ümidlər get-gedə boşa çıxırdı. O özü Abrakunisdə və bir sıra erməni kəndlərində səfərbərlik apara bilməməsindən, ərzağın, hərbi paltarın və s. çatışmamasından şikayətlənirdi ("Naşe vremya" qəzeti, 3 yanvar 1919-cu il).

Andranikin yerli erməni əhalisi tərəfindən dəstəklənməməsini, nifrət və qəzəblə qarşılanmasını səciyyələndirən bir məlumatda deyilirdi:

""Dahi" istilaçının qazancı təkcə qədim yurd-yuvasından qovulmuş Azərbaycan türklərinin ah-naləsi deyildi. Biz daha çox ermənilərin yalvarışlarını eşidirdik. Onlar deyirdilər, kaş elə bir hakimiyyət gələydi ki, "şanlı generalı" oradan çıxaraydı" ("Naş put" qəzeti, 17 yanvar, 1919-cu il).

Andranik özü də məktubunda yerli əhalinin ona qarşı "soyuqqanlı, rəğbətsiz, hətta bəzən ədavətli" olmasını etiraf etmişdir. O yazırdı: "Mənim dəstəm Qarabağa girən zaman çox ağır günlər idi. Qoşunlarım nizamsız, soldatlar yorğun və pərişan...

Boynuma almalıyam ki, bədbəxtlik mənzərəsini gördükdə bütün müharibə müddətində heç bir təcavüz görməyib qurban vermiş olan yerli əhali bizə qarşı soyuqqanlılıq, rəğbətsizlik və hətta bəzən ədavət göstərirdilər. Böylə münasibətdən qoşunum bir az da əskildi. Qaçqınlar aylarla açıq havada, dərələrdə ac qalırdılar, hələ yerləşdirilməmişdilər. Sisyan və Zəngəzur qəzalarının 8 min evdən ibarət əhalisi 12-14 minlik qaçqını yerləşdirə bilmədi. Elə bir təşkilat yox idi ki, bu bədbəxtləri mühafizə etsin.

Zəngəzur qəzası əhalisi tərəfindən etimad və müavinət görməyərək qoşunumun çoxu Qarabağa getdi. Mənimlə ancaq bir az soldat qaldı. Mən isə heç vəchlə Ermənistan Cümhuriyyətinə getməməyi qərarlaşdırdım" (Bax: "Azərbaycan" qəzeti, 18 dekabr 1918-ci il).

Andranik imperialist dövlətlərindən asılı idi. SSRİ xarici işlər komissarı G.V.Çiçerinin sözləri də bu fikri aydınlaşdırır: "Brest–Litovsk sülhündən dərhal sonra Türkiyə ordusu əvvəlcə Batum, Qars, Ərdəhan, sonra isə o biri yerlərə hücum etməyə başladığı zaman ilk növbədə general Nazarbekov türklərə müqavimət göstərirdi. O, meydandan gedəndən sonra mübarizəni Antantanın agenti olan Andranik davam etdirirdi. Andranik ingilis Denstervilin ekspedisiya dəstələri ilə birləşmək üçün Qafqazdan Urmiyaya (Cənubi Azərbaycandakı) köməyə can atırdı. Lakin Türkiyə qoşunları Urmiya və Təbrizi Denstervildən tez tutdular və onu geri çəkilməyə məcbur etdilər" ("Bakinski raboçi" qəzeti, N 107, 14 may 1924-cü il).

Andranikin Cənubi Azərbaycanda yerləşən İngiltərə qoşunu ilə birləşməyə can atması və onun kor-peşman yenidən Qafqaza qayıtması səbəbləri onun "Horizont" qəzetində dərc edilmiş məktubunda da əksini tapmışdır. Andranik 1918-ci il 27 noyabr tarixli məktubunda yazırdı: "...O zaman ki, Türkiyə ilə Ermənistan Cümhuriyyəti arasında sülh əqd edilmişdi, mən özümün və qoşunumun Ermənistan daxilində yaşamamızı lüzumsuz və qeyri-mümkün hesab edərək dağlar, düzlər və biyabanlar təriqi ilə müttəfiq İngiltərə qoşununa qoşulmağa getdim. Bu ümidlə ki, onun köməyi ilə Türkiyə Ermənistanının son parçasını müdafiə edək. Fəqət müvəffəqiyyət əldə etmədim və Naxçıvan tərəfindəki müsalimədən sonra tarixi Qarabağ dağlarına keçdim ki, hürriyyətpərvər və qeyrətli ruhumuzu başqalarının alçaq hakimiyyəti altına verməyim. Şimdi 3 aydan ziyadadır ki, Qarabağın dağlarında, dərələrindəyiz" (Bax: "Azərbaycan" qəzeti, 18 dekabr 1918-ci il).

Andranik yenə də mənfur əməllərindən əl çəkmirdi: müsəlman kəndləri dağıdılır, dinc əhali məhv edilir və ya doğma yurdundan didərgin salınırdı.

1918-ci ilin dekabrında Bakıda ingilis işğalçı ordusunun komandanı general Tomson guya Azərbaycan kəndlərini daşnak quldur dəstələri tərəfindən dağıdılmaqdan qorumaq məqsədilə Şuşaya və Gorusa bir neçə ingilis zabiti göndərmişdir. Əslində isə ingilis zabitləri azərbaycanlılara qarşı Andraniki və onun quldur dəstəsini müdafiə edirdilər.

1919-cu ilin yanvarında zəngəzurlu aqronom C.Sultanov Gəncə qubernatoruna məlumat verirdi ki, ingilis mayoru Gibbon Zəngəzur qəzasının 4/5 hissəsini Andranikin sərəncamına verməyi qərara almışdır (ARDA, f. 894, s. 4, iş 65, v. 44). Sultanov həmçinin xəbər verirdi ki, o, "ingilislərin açıq-aşkar Andranikə tərəf durduqlarını görmüşdür". (Yenə orada, v. 45).

1918-ci il dekabrın 8-də mayor Gibbon bildirmişdir ki, "Bakıda müttəfiq qoşunlarının komandanı general Tomsonun möhkəm və qəti qərarına görə... Əkərə çayından Gorusa qədər, eləcə də Zəngəzur qəzasının Türkiyədən qaçmış ermənilər yerləşdiril-

miş bütün bölgələri general Andranikin ixtiyarında və idarəsi altında qalmışdır" (Yenə orada).

Həmçinin Gibbon dekabrın 26-da Sultanovun yanında bildirmişdir ki, o, "Andranikdən Gorusda qalmağı xahiş etmişdir və öz qərarı barədə general Tomsona məlumat vermişdir" (Yenə orada).

İngilislərin böhranlı, çətin şəraitdə Andranikə havadarlığı təsadüfi deyildi. Türkiyə və Ermənistan arasında Batumda bağlanmış müqaviləyə görə Sisyan və Zəngəzur mahallarının əhalisi Azərbaycana tabe olmalı idi. Lakin millətçi erməni varlıları dinc yaşamaq həsrətində olan əhalinin arzusuna rəğmən Azərbaycanın təbəəliyini qəbul etmir, ciddi müqavimətə məruz qalacaqlarından qorxaraq Andranikə bel bağlayırdılar. Onlar 20 yaşından 50 yaşınadək kişiləri silah gücünə səfərbərliyə alıb silahlı dəstələr düzəldir, Andranikin ixtiyarına verirdilər. Bütün bunlara şərait yaradan ingilislər Andranikin öz qoşununu yenidən təşkil edib Zəngəzur və Qarabağ torpaqlarının tam ələ keçirilməsini istəyirdilər.

Andranikin məkrli məqsədi 1918-ci il noyabrın 27-də "Horizont" qəzetində dərc etdirdiyi məktubunda aydın şərh olunmuşdur. O yazırdı: ümumi səfərbərlik keçiriləndən sonra "...Zəngəzur, Qafan və Sisyan əhalisinin dəstələri, mənim qoşunum, Şuşa və Gəncə alaylarının soldatları böyük bir qüvvə təşkil etdilər. Sisyan, Zəngəzur və Qafan sıx surətdə əlaqədə olduqdan sonra türklərin hakimiyyəti altına düşmüş olan tarixi Qarabağı bunlar ilə birləşdirmək məsələsi qalırdı. Şuşa şəhəri süqutla tərksilah edilmişdisə də ətraf kəndlər tabe olmayaraq səbirsizliklə bizim vürudumuzu gözləyirdilər. Bu vəchlə mənim və soldatlarımın burada olmamız və buranın səfərbərliyi sayəsində Zəngəzur, Sisyan və Qafan əhalisi bu vaxtadək hələ türklərə, ya Azərbaycana tabe olmamışdılar. Halbuki Ermənistan Cümhuriyyəti nəinki kömək etmək istəmirdi, hətta bizimlə münasibətə girişmək belə istəməyərək əhaliyə tövsiyə edirdi ki, silahlarını təslim etsinlər və qorxulu bir adam olmaq üzrə Andraniki içərilərindən kənar edib müsəlləh müsaliməyə səbəbiyyət verməsinlər.

Hər halda Qarabağ məsələsinin həllində fürsət fövtə verilməməlidir.

Zəngəzur, Sisyan və Qafan məsələləri artıq həll olunmuşdur. Ümidvaram ki, Şuşa haqqındakı qərardadımıza da yaxın zamanda əməl edəcəyik" (Bax: "Azərbaycan" qəzeti, 18 dekabr 1918-ci il).

İngilislərin Andranikin tərəfini saxlamalarının əsas məqsədi hələ 1918-ci il dekabrın 11-də məlum olmuşdu. Həmin gün Azərbaycan kəndlərindən olan özünümüdafiə dəstələri ingilis-fransız missiyasının tələbi ilə öz mövqelərini tərk edib kəndlərinə qayıtmışlar. Bundan istifadə edən Andranik kəndlərə basqın etmiş, cinsindən və yaşından asılı olmayaraq, kəndlərin bütün əhalisini vəhşicəsinə doğratmışdır. 12-dən çox kənd yandırılmış, sağ qalan əhali əsir götürülmüşdür (Yenə orada).

Andranik qətllərdən və soyğunçuluqdan yayınan ermənilərі də qəddarcasına cəzalandırırdı. Onları dar ağacından asıb öldürtdürürdü.

Azərbaycan kəndlərinin dağıdılıb viran qoyulması 1918-ci il dekabr ayı ərzində və 1919-cu ilin əvvəllərində davam etdirilmişdir. Eyni zamanda "İngilis-fransız missiyası Azərbaycan kəndlərinin mühafizəsi üçün heç bir tədbir görməmişdir. Cəzalandırılmayan Andranik isə Azərbaycan kəndlərini yandırır və əhalisini qılıncdan keçirirdi.

Belə bir şəraitdə Şuşada və Gorusda olan İngilis missiyasının əməkdaşları Andranik üçün Qatar kəndindən Şuşaya qədər və ondan da o tərəfə yolun açılmasına çalışırdılar.

Həmin günlərdə Zəngəzur qəzasının rəisi Bakıya məlumat verirdi ki, "böyük dövlətlərin missiyasının gözü qarşısında müsəlmanların vəhşicəsinə qırılması cəzasız qalır".

1919-cu il yanvarın 6-da Zəngəzurdan Gəncə general-qubernatoruna göndərilən teleqramda deyilir: "İngilis-fransız missiyasının Gorusa gəlməsinə baxmayaraq, ermənilər bütün qəza boyu hücuma keçmişlər. Onlar əhalini öldürür, var-yoxunu əlindən alır, kəndləri viran edirlər".

Zəngəzur qəzasının idarə rəisi Mahmudbəyov isə Gəncə qubernatoruna 1919-cu il 28 yanvar tarixli rəsmi məlumatında hə-

yəcanla bildirirdi: "Zəngəzur qəzasında işə başlayan kimi, belə bir məlumat aldım ki, Kirətağ, Koşut, Qarabaş, Baharlı, Kiş, Daşbaşlı kəndləri, habelə "Kiçik Dərəli" vadisində yerləşən 5-ci polis məntəqəsi Andranikin bir neçə yüz silahlı erməni quldur dəstəsi tərəfindən mühasirəyə alınıb. Mən bu barədə Şuşa və Gorusda qərar tutan Britaniya missiyasına, habelə Azərbaycan Respublikasının Parlamentinə, daxili işlər nazirinə təcili xəbər verdim" (ARDA, f. 894, siy.4, iş 65, vər.78-79).

Şərurun müsəlman camaatı adından göndərilən müraciətdə deyilirdi: "Qəmərli, Sədərək, Dəmirçilər və digər kəndlərin əhalisini qılıncdan keçirmiş silahlı erməni dəstələri bizlərə tərəf üz tutublar. Şərur qadınları və uşaqları ev-eşiklərini tərk edərək qaçmaqla canlarını qurtarırlar. Araz çayının sahillərində yaşayan minlərlə əhalinin xilası naminə böyük dövlətlərə, ilk növbədə İngiltərə və Amerikaya, Bakıya və Tiflisə müraciət edin. Qoy onlar ermənilərin vəhşiliyinə son qoysunlar və bizi onların əlindən mümkün qədər tez xilas etsinlər" ("Azərbaycan" qəzeti, yanvar 1919-cu il).

Andranik tərəfindən Azərbaycan kəndlərinin dağıdılması və dinc əhalisinin qətlə yetirilməsi fevralda da davam etdirilmişdir. Andranikin dəstəsindən olan başkəsənlər azərbaycanlıların cəsədlərini eybəcər hala salır, mal-qaranı sürüb aparır, əmlakı soyub talayırdılar. Fevralın 28-də Andranik başda olmaqla onun quldur dəstəsi Gorusdan Dıx kəndinə yollanır. Bundan başqa, həmin dəstədən daha 400 nəfər Əkərə kəndinə gəlirlər (Yenə orada).

Andranik Əkərədən keçərək Şuşa və Araz istiqamətində hərəkət etməklə Zəngəzurun azərbaycanlı əhalisini dövrəyə almış olurdu ki, bu da Andranikin Zəngəzuru ələ keçirmək məqsədini aydın göstərirdi...

Zaqafqaziyada ictimai-siyasi hadisələrin qarışıq dövründə Qərbi Azərbaycan bölgələrində nəzarətin zəifləməsi Andranikin öz qoşunu ilə Zəngəzur qəzasına girməsinə şərait yaratmışdı.

Əyyub Abbasovun "Zəngəzur" romanında Andranikin bu qəzada azərbaycanlılar yaşayan kəndlərə hücumu, yerli əhaliyə

qarşı ağlasığmaz düşmənçilik münasibəti dolğun bədii lövhələrdə əks olunmuşdur.

M.S.Ordubadi "Dumanlı Təbriz" romanında Andranikin "türk qanına həris", qatı millətçilərdən ibarət dəstəsini necə təşkil etməsindən danışır. Məlum olur ki, erməni daşnak liderləri Zaqafqaziyada, hətta Təbrizdə yoxsul erməniləri "müqəddəs borc" şüarı altında toplayıb Andranikin "könüllülər dəstəsi"nə cəlb edirmişlər (Bax: M.S.Ordubadi. Dumanlı Təbriz. B., 1966, səh. 260-261). M.S.Ordubadi Təbrizdə xırda tacir və yoxsul ermənilərin bu gizli səfərbərliyə qarşı etirazları barədə yazırdı: Təbrizdə məskun olan ermənilər "...Andranikin dəstələrinə yazılmağın əleyhinə idilər. Onlar başa düşürdülər ki, belə siyasət Təbrizin erməni əhalisinin taleyi üçün fəlakətlə nəticələnə bilər. Bununla belə etirazlarını açıq bildirməyə cürətləri çatmırdı. Çünki şəhərdə silahlı daşnaklar növbə çəkir, narazılıq edən hər kəsi ölümlə təhdid edirdilər. Bir çox erməni ailələrində Andranikin çağırışı bədxəbər kimi qarşılanırdı. Daşnaklar xalqın gizli narazılığını sezirdilər. Odur ki, qəddar başkəsənləri silahlandırır, onların ölüm qorxusu altında "könüllülər" toplayır, etirazlara məhəl qoymur, bəzi hallarda güc tətbiq edirdilər".

* * *

Andranik Zəngəzur qəzasında azərbaycanlılarla dinc yanaşı yaşayan erməniləri qatı millətçi kimi görmək istəyirdi, o məqsədlə yerli erməniləri vahimə içərisində saxlayırdı. Andranik ordu mətbəəsində çap edib yaydığı vərəqələrdə qonşu azərbaycanlı kəndlərinə yanacaq və ərzaqla kömək edən kəndliləri təhdid edir, ölümlə hədələyir. Andranikin quldur dəstəsi keçib getdiyi yerlərdə azərbaycanlı kəndlərini rəhmsizcəsinə dağıdırdı. Tbilisidə nəşr olunan "Qruziya" qəzeti 9 noyabr 1918-ci il tarixli sayında dərc etdiyi rəsmi xəbərlərdə yazırdı ki, Zəngəzurun Sisyan rayonunun Qarakilsə, Dəstəkert, Dulus, Şükər, Vağudi, Qızılağac, Şəki, Ərəmis, Pulkənd kəndləri dağıdılmışdır. Məmməd Səid Ordubadi "Həyatım və mühitim" adlı irihəcmli xatirəsində yazır ki, 1914-cü ildə Andranik Ozanyan Culfada olduğu zaman onunla görüşmüş, qəzet müxbiri kimi ondan müsahibə almağa

çalışmış, həm də erməni-müsəlman arasında gözlənilən milli ixtilafın qabağını almağı ondan xahiş etmişdir. Bu görüşdə Andranik gənc müxbirə körpəlik və gənclik illəri yaşadığı Türkiyəyə məhəbbətindən söz açmış, öz qanlı əməllərinin, başıpozuqluğunun səbəbini belə izah etmişdir: "Türkiyədə bu vəziyyətləri yaradanların Allah bəlasını versin. Mən ən sevdiyim Osmanlı məmləkətinin yabançısı, kim bilir, bəlkə də xaini kəsildim" (Bax: M.S.Ordubadi "Həyatım və mühitim". Respublika Əlyazmaları İnstitutu. Arxiv-16, Q-49/423, səh. 115).

"Mühüm söhbətləri mətbuat səhifəsində verməyin vaxtı hələ yetişməmişdir"–deyə Andranik Ozanyan müsahibə verməkdən boyun qaçırmışdır. M.S.Ordubadi ona daha "mühüm bir iş üçün də" gəldiyini söyləmişdir: "–Mən bu yerlərdə çoxdan bəri yaşayıram. 1905-1906-cı illərdə baş verən erməni-müsəlman ixtilaflarından törəmiş faciələrin bir çoxunu öz gözümlə görmüşəm. Mən hər iki tərəfdən dağılan kəndlər, yanan evlər, günahsız öldürülən minlərlə cocuq və qadın görmüşəm.

İndi də onları düşünərkən ürəyim ağrıyır. Hazırda Osmanlı–Rusiya münasibətlərinin pozulması nəticəsində əski faciələrin yenidən başlanması qorxusu meydandadır. Bu faciələrin zəminləri hazırlanır. Zənnimcə, bunların qarşısını almış olursanız, öz xalqınıza da böyük bir atalıq etmiş olarsınız.

–Nə olmuşdur, hələ ki, bir hadisə baş verməmişdir. Mən Naxçıvan–Culfa, Ordubad–Culfa arasında olan bütün xırda hadisələri saydım. Paşa gözlərimin içinə baxırdı" (Orada, səh. 116-117.)

M.S.Ordubadi milli ixtilafın dinc əhaliyə fəlakətlər gətirəcəyini anlatmağa çalışırdı. Andranik Türkiyədə qanlı döyüşləri guya erməni ailələrini Anadolu türklərinin pəncəsindən xilas etmək naminə apardığını söyləmiş, müsahibini əmin etmişdir ki, "keçmiş xataların təkrar olunmasına" yol verməyəcəkdir. "Mənim saçlarım mübarizədə ağarmışdır. Mən mübarizəsiz yaşaya bilmərəm. Mübarizədə bir çox səhvlər də buraxmışam. Bu mübarizə "İttihad və tərəqqi" firqəsi ilə başladığım son mübarizədir... Bu mübarizə Osmanlı dövləti, daha açığı, ittihad və tərəqqiçilərin əleyhinədir". (Yenə orada, səh. 117-118).

Andranik 1914-cü ilin dekabrında Culfaya Türkiyə döyüşlərində olan itkilərin yerini doldurmaq üçün yeni könüllülər və yerli ermənilərin maddi köməyi üçün gəlmişdi. Onun sonralar Zaqafqaziya ərazisində qanlı əməlləri açıq-aşkar göstərdi ki, başıpozuq general Osmanlı dövləti, "İttihad və tərəqqi" firqəsi ilə son mübarizə aparmasından dəm vursa da, öz quldur dəstələri ilə Naxçıvan, Zəngəzur, Qarabağ bölgələrində azərbaycanlılara qarşı əsl soyqırımı siyasəti yeritmişdir.

Andranikin quldur dəstəsi hücum etdiyi müsəlman kəndlərində əhalinin bir hissəsini qəddarcasına qətlə yetirmiş, bir hissəsini qovmuş, onların var-yoxunu talan etmişdir.

Zəngəzur qəzası rəisinin Gəncə qubernatoruna 26 noyabr 1918-ci il tarixli 665 saylı raportunda deyilir ki, ermənilər Sisyan mahalı müsəlmanlarının axırına çıxdıqdan sonra Mehri dərəsinin Lehvaz, Tey, Mülk, Vartanizor, Əldərə, Tuğut, Mərzəcat, Hortagiz, Dəstəkert müsəlman kəndlərini dağıtmış, yüzlərlə əhalini qırmışlar (Bax: Azərbaycan SSR EA-nın xəbərləri, N-4, 1989-cu il, səh. 87).

Qərbi Azərbaycanın Uluxanlı (Zəngibasar), Aşağı Necili, Xaçaparaq (Zəhmət), Çobankərə və digər kəndləri də Andranik və Dronun hərbi birləşmələrinin hücumlarına məruz qalırdı. Bu ağır el düşmən hücumlarına qarşı inadlı müqavimət göstərir, təcavüzkarları qəhrəmanlıqla dəf edirdi. Lakin təlim görmüş, toplu-tüfəngli nizami orduya qarşı xalqın qeyri-mütəşəkkil dəstələri uzun müddət tab gətirə bilməzdi.

Erməni quldur dəstələri çətinliklə zəbt etdikləri kəndləri yerlə-yeksan edir, dinc əhaliyə divan tutur, uşağa, qocaya və qadına aman vermədən qılıncdan keçirir, ağır işgəncələr verirdilər. Bu fəlakətdən xilas olan minlərlə əhali doğma yurdunu tərk edib Naxçıvana, hətta İran və Türkiyəyə pənah aparırdılar. Onlar səfalət girdabında aclığa, soyuğa, xəstəliyə, min bir əzaba düçar olurdular.

Daşnak quldur dəstələri işğal etdikləri azərbaycanlı kəndlərində əllərinə keçən hər nə varsa, çapıb-talayıb aparırdılar. "Joğovurd" ("Xalq") erməni qəzeti 1920-ci il tarixli 105-ci sayında səlahiyyətli daşnak nümayəndəsinin Zəngibasara hücum zamanı

daşnak hökuməti üzvü A.Ohancanyana göndərdiyi məlumatı dərc etmişdir. Orada beş minə yaxın əhalisi olan Zəngibasarda baş verən hadisə xəbər verilir: "Biz Zəngibasarı tutmuşuq. Bu ölkə elə zəngindir ki, borclarımızı bir neçə dəfə ödəmək üçün imkan var. Artıq iki gündür ki, burada misli görünməmiş talançılıqdır – buğdanı, arpanı, düyünü, samovarı, xəliləri, pulu, qızılı... hər şeyi alırıq...".

Erməni daşnak hökuməti Ermənistanda azərbaycanlıların soyqırımını, onların ata-baba yurdundan silah gücünə çıxarılmasını dövlət siyasəti səviyyəsinə qaldırmışdı. Heç təsadüfi deyildir ki, mənfur, avantürist siyasət nəticəsində "...Ermənistanda daşnak hökuməti (30 aylıq hakimiyyəti dövründə – may 1918 – noyabr 1920) Azərbaycan əhalisinin 60 faizini... qırmışdır" (Bax: A.Lalayan. "İstoriçeskiye zapiski", (II hissə), Moskva, 1938, səh. 80).

Dövri mətbuatdan və rəsmi arxiv sənədlərindən məlum olur ki, 1918-1919-cu illərdə azərbaycanlıların soyqırımı və deportasiyası nəticəsində qaçqınlar ordusu yaranmışdı. Deyildiyi kimi, Ermənistan başdan-başa "hüzn, hıçqırtı, matəm, kədər və iztirablarla dolu cəhənnəmə bənzər diyara çevrilmişdi".

Vedibasar, Zəngibasar, Eçmiədzin, Basarkeçər, Dərələyəz qəzalarından erməni daşnak quldurlarının törətdiyi qırğından qaçıb Naxçıvana sığınan yüz minlərlə azərbaycanlı açıq havada, səfalət içərisində əzab çəkirdilər: epidemiya və ehtiyac onları əldən salmışdı. Hər gün yüzlərlə adam ölürdü.

1918-ci ilin mart ayında erməni millətçiləri Bakı, Şamaxı, Quba qəzalarında, eləcə də Azərbaycanın digər bölgələrində azərbaycanlıların soyqırımını eyni qəddarlıqla həyata keçirmişdilər: kəndlər yandırılmış, dinc əhali kütləvi surətdə qətlə yetirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci il iyulun 15-də Azərbaycan Cümhuriyyəti Nazirlər Şurası milli faciəni–soyqırımını araşdırmaq məqsədilə fövqəladə istintaq komissiyasının yaradılmasını qərara almışdır. Lakin məlum olduğu kimi, "Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdik-

ləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi".

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı xalqımıza qarşı törədilmiş soyqırımın obyektiv mənzərəsini yaratmağa və ona siyasi-hüquqi qiymət verməyə imkan yaradır.

Bu sənəd iki əsrə yaxındır ki, xəyanətkar ermənilərin öz havadarları ilə birlikdə xalqımızın başına gətirdiyi müsibətlərin, misli görünməmiş riyakarlıqla torpaqlarımızın ələ keçirilməsi üçün apardıqları məkrli siyasətin dünya ictimaiyyətinə açılıb göstərilməsinə geniş imkan verir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1813-1990-cı illərdə gizli saxlanılan, açılıb deyilməsinə qadağa qoyulmuş tarixi həqiqətlər üzərindən pərdə götürülmüşdür. Lakin tarixi keçmişin obyektiv mənzərəsini yaratmaq, azərbaycanlıların soyqırımının–erməni daşnaklarının görünməmiş qəddarlıqla həyata keçirdikləri faciələrin obyektiv mənzərəsini yaratmaq və ona siyasi-hüquqi qiymət vermək üçün belə bir fərman zəruri idi. Bu fərmanın böyük tarixi əhəmiyyəti vardır. Erməni Daşnaksutyun partiyası həyasızcasına bütün dünyaya car çəkir ki, 1915-ci ildə türklər tərəfindən erməni soyqırımı həyata keçirilmiş, bunun nəticəsində milyonlarla erməni məhv edilmişdir. Hər il aprelin 24-də uydurulmuş soyqırımı gününü qeyd edən erməni daşnakları öz tarixi cinayətlərini gizlətmək üçün bütün dünya ictimaiyyətini aldatmağa çalışmışlar. Onlar Rusiya imperiyası dövründə də ağ yalanı həqiqət kimi qələmə verməkdən çəkinməmişlər. Çünki erməni daşnak partiyası liderlərinin iki əsrə yaxın müddət ərzində azərbaycanlılara qarşı apardıqları xəyanətkar siyasət rus şovinistləri-

nin müxtəlif metodlarla həyata keçirdikləri düşmənçilik siyasəti ilə uyğun gəlirdi. Bu, tarixin danılmaz həqiqətidir. Bu amansız siyasətin mahiyyəti Azərbaycan xalqının tarixi torpaqlarını tədricən zəbt etmək, yerli əhalini pərən-pərən salmaq və ya çoxalmasının qabağını almaq tədbirlərini həyata keçirməkdən ibarət idi. Düşmənlər saxtakarlıq və zorakılıq yolu ilə Qafqazın tarixini təhrif etmək siyasəti yeridir, "erməni vilayəti" adlandırılan uydurma ərazi bölgüsü yaradırdılar. "Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı".

1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri Azərbaycanın tarixi torpaqlarının bölünməsinin əsasını qoydu. Bundan sonra ayrı-ayrı tarixi mərhələlərdə İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərində ermənilərin məskunlaşması prosesi gücləndi. 1905-1907-ci illərdə İrəvan quberniyasında, Qarabağda, Bakıda, Gəncədə və digər yerlərdə azərbaycanlılara qarşı ermənilər qanlı aksiyalar həyata keçirdilər. Yüzlərlə kəndlər yerlə yeksan edildi, on minlərlə dinc əhali vəhşicəsinə qətlə yetirildi və ya doğma yurdundan qovuldu. Erməni Daşnaksutyun partiyası Azərbaycana qarşı geniş miqyaslı proqramlarını ardıcıl surətdə inadla həyata keçirməyə çalışırdı. Erməni daşnaklarının tarixin ayrı-ayrı dönəmlərindən məharətlə istifadə edib azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirmələri də bunu sübut etməkdədir.

1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər 1918-ci il mart-aprel ayında bolşevik bayrağı altında Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda və Azərbaycanın digər bölgələrində dinc əhaliyə divan tutmağa, milli mədəniyyət abidələrini dağıdıb məhv etməyə başladılar.

1918-ci ildə Bakıda dörd gün davam edən qarışıqlıqdan istifadə edən ermənilər Şaumyanın havadarlığı ilə ağlasığmaz vəhşiliklər törətdilər. Nəriman Nərimanov Şaumyanın riyakarlıq edərək siyasi mübarizəni milli münaqişəyə çevirməsini ifşa edə-

rək yazırdı ki, "Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara olmazın sitəm edirlərdi".

Burada ermənilərin törətdikləri vəhşiliklər, ağır cinayətlər azərbaycanlıların milli mənsubiyyətinə qarşı düşünülmüş qanlı aksiya idi. Nəriman Nərimanov açıqca yazırdı: "Ermənilər müsəlmanları dəstə-dəstə tutub əsir edir və yol ilə öz ştablarına apardıqda həyasızcasına güllələyib, öldürürlərdi. İş o dərəcəyə gəlmişdi ki, müsəlmanların bolşevik olanlarına da aman vermirlərdi. Deyirlərdi ki: "Biz bolşevik-filan tanımırıq, müsəlman oldun-kifayətdir, artıq şey lazım deyil"... İstədiklərini öldürür, soyur, soyundurur, evlərini talan edirlərdi. Daha bir müsibət qalmamışdı ki, müsəlman xalqına etməsinlər".

1920-ci ildə ermənilərin Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını həyasızcasına Ermənistan SSR-in ərazisi elan etmələri, 1948-1953-cü illərdə Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə Kür–Araz ovalığına köçürülməsi, 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konflikti, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridilməsi Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin ayrı-ayrı mərhələləridir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı fərmanla martın 31-i azərbaycanlıların soyqırımı günü elan edilmişdir. Bu o deməkdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Bunun siyasi əhəmiyyəti odur ki, tarixi həqiqətin açılıb bütün dünya ictimaiyyətinə çatdırılması erməni daşnaklarının və onların havadarlarının məkrli siyasətinin ifşasına xidmət edəcəkdir.

*Teymur Əkbər oğlu Əhmədov*
**Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri**
***(1918-1920-ci illər)***
**BAKI – ŞİRVANNƏŞR – 2001**
-------------

Sex müdiri
***Telnaz CƏBRAYILOVA***

Çapa imzalanıb ***25.05.2001.***
Formatı ***60x84 1/16.***
Sayı ***600.***